# *Türkiyə mətbuatı:* Prezident İlham Əliyev Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb


Ekovitrin

Aliyev; Orta Asya ve Azerbaycan, Devlet Başkanları zirvesine katıldı

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Astana'da gerçekleştirilen Orta Asya ve Azerbaycan Devlet Başkanları Zirvesi'nde yaptığı konuşmada "Ermenistan işgalinden kurtarılan Karabağ'ın restorasyonuna verilen destek, kardeşlik ilişkilerimizin tezahürlerinden biridir" dedi.


Cumhuriyet

Orta Asya liderleri Kazakistan'da toplandı

Kazakistan'ın başkenti Astana'da, Kazakistan, Kırgızistan, Özbekistan, Türkmenistan, Tacikistan ve Azerbaycan liderlerinin katılımıyla Orta Asya Devlet Başkanları 6. İstişare Toplantısı yapıldı.


HABER GLOBAL

Aliyev'den 'savunma ve güvenlik işbirliği' mesajı

Orta Asya Devlet Başkanları 6. İstişare Toplantısı'nda konuşan Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, "Dünyada artan tehditler ve zorluklar, ülkelerimiz arasındaki savunma ve güvenlik işbirliğinin daha da güçlendirilmesini gerektirmektedir" dedi.


BEYAZ GAZETE

Aliyev; Orta Asya Ve Azerbaycan, Devlet Başkanları Zirvesine Katıldı


YENİÇAĞ

Orta Asya liderleri Kazakistan'da bir araya geldi

**Türkiyə mediası Mərkəzi Asiya və Azərbaycan Respublikası dövlət başçılarının Astanada keçirilən görüşünü geniş işıqlandırıb.**

AZƏRTAC xəbər verir ki, qardaş ölkənin media qurumları bu kimi görüşlərin regional əməkdaşlıq nöqteyi-nəzərindən əhəmiyyəti barədə məlumat verib. Xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına xüsusi diqqət yetirilib. Azərbaycan liderinin rəsmi Bakının Mərkəzi Asiya ölkələri ilə sıx və hərtərəfli əməkdaşlıqda maraqlı olması barədə sözlərindən sitat gətirilib.

Prezident İlham Əliyevin ölkələrin müdafiə və təhlükəsizlik sahələrində daha da yaxınlaşmasının zəruriliyi məsələsi ilə bağlı fikirlərindən iqtibas edilib.

"Azərbaycan lideri Mərkəzi Asiya ölkələrinin respublikanın Ermənistan işğalından azad edilmiş ərazilərinin bərpasına verdiyi töhfəni qardaşlıq münasibətlərinin təzahürü adlandırıb", - deyə "Beyaz Gazete" nəşri yazıb və Prezident İlham Əliyevin Füzuli və Ağdam rayonlarında müxtəlif layihələrin həyata keçirilməsi ilə əlaqədar Qazaxıstan, Özbəkistan və Qırğızıstan rəhbərliyinə minnətdarlığını bildirdiyini qeyd edib.

TRT AVAZ telekanalı Prezident İlham Əliyevin Azərbaycanın iqlim dəyişikliklərinin mənfi nəticələrinin azaldılması üzrə birgə regional təşəbbüsləri dəstəkləməyə hazır olması barədə sözlərindən sitat gətirib.

Türkiyə mediası Bakının Mərkəzi Asiya ölkələri ilə nəqliyyat sahəsində də əməkdaşlığı genişləndirməyə hazır olduğunu vurğulayıb. Azərbaycan dövlət başçısının Bakı-Tbilisi-Qars dəmir yolu və Ələt Beynəlxalq Ticarət Limanının da daxil olduğu Orta dəhlizin artan əhəmiyyəti barədə fikirləri oxuculara çatdırılıb.

Azərbaycan.- 2024.- 11 avqust (№ 170).- S.2.